

Kənan Hacı

# Hacı İsgəndər

**Roman**

(əvvəli ötən sayımızda)

**Müəllifdən**

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

***O, yəqin ki, bu kitabları əlləriylə oxuyurdu, onun əlləri istənilən kitabı görüb tanıyırdı. Səhifələrdəki saysız-hesabsız hərflərin necə mənaya çevrildiyini də görürdü. "Vəqti sakın kim, vəqt əzizdür, fövt olmasun". Bu cümlə şairi həyəcana gətirirdi. Qoca bir də onu demişdi ki, kitabı otur, burda oxu. Bəs özü niyə kitabxananın labirintində qeybə çəkildi? Nizə nəyin işarəsi idi? Şifrələr onun üçün açılacaqdımı? Suallar tikan kimi bədəninə batırdı, beynini sıxırdı.***

***Hacı İsgəndər şairin əlindəki kitaba işarə ilə dedi:***

***-Bu nədir belə? Qədim kitablara oxşayır. Hardan tapmısan bunu?***

***Haşım bəy narahat tövrlə kətilə çökdü və gözlərini kitabdan çəkmədən: - ——Bunu kitabxanadan götürdüm, çoxdan axtarırdım bu kitabı. Amma indi məəttəl qalmışam. Kitab öz sirrini vermir, – dedi.***

Hacı İsgəndər kitabı ondan alıb ehtiyatla vərəqləməyə başladı: "Zahidlik oldur ki, dünyaya aldanmayasan".

Haşım bəy yerindən dik atıldı. Heyrətlə Hacı İsgəndərə baxdı. Bu pıçıltı onunmu dodaqları arasından qopmuşdu? Yoxsa kitab sirrini açmağa başlamışdı?

"Zalımla döyüş, ölsən şəhid olacaqsan, qalsan qazi".

Hacı İsgəndər inkarın qrammatikasını bilirmiş! İnkar dilində yazılmışdı bu kitab. Nizə yol işarəsi imiş. Nəyi inkar edir bu kitab? Şeytanı! Nizə cihadi-əsgərə işarədir.

Hacı İsgəndər başını qaldırıb şairə baxdı və gülümsədi.

-Qul cəzb halına yüksələndə qəlbindən pərdə qalxar və onun önündə mənəvi məqamlar açılar.

Hacı İsgəndərin səsi Azan səsi kimi yırğalanırdı, şairin qəlbi ehtizaza gəldi, əllərini yuxarı qaldırıb üzünü gözəgörünməzə tutdu:

"Yarəbb, bizi qəvi düşmənin qarşısında zəlil etmə! Düşmənimizi məhv-nabud elə, inşallah!"

## X fəsil

**Haman Əlidür, həcərdə ki, həkk olub qədəmi,**
**Gəlibdü möcüzəsi hədsiz zühura bəsa.**

*Məhəmməd İsmayıl Asi*

Yerlə göyün birləşdiyi yerdə buludlar qəzəbindən qapqara qaralmışdı. Qayaların üstünə toplaşmış qadınlar əllərini sonsuz səmaya tutub ərləri, övladları üçün həmdü-sənalar edib, bildikləri bütün duaları oxuyurdular:"Ya İmam Əli, sən özün dadımıza yetiş! Yarəbbim, bizi bu zalımların zülmündən qurtar. Oğullarımızı salamat elə, onları düşmən gülləsindən qoru!" Anaların, qız-gəlinlərn duaları Allah dərgahına yüksəlirdi. Kənara çəkilib xısın-xısın ağlayanlar Allahdan güc istəyirdilər ki, işdi, şayəd gavur dəstəsi onların başının üstünü kəsdirsə, namuslarına təcavüz etməmiş özlərini dənizə təslim edə bilsinlər. Canları burunlarındaydı. Bu çılpaq qayaların üstü ölümün sərhədi idi, burdan o yanası ölüm idi, yoxluq idi. Elə arxada da ölüm dişlərini şaqqıldada-şaqqıldada igidlərin həyatına son qoymaqda idi. Arxada qanlı ölüm, irəlidə qansızqadasız ölüm var idi. Onlar sanki hücumdan, talandan deyil, yorğunluq, yoxsulluq üzündən də qəzəbliydilər.

Xırdaxanım xala qəfildən oturduğu yerdən ayağa qalxdı, çopur qayanın lap ucuna yaxınlaşdı, qızlar çığırışdılar. Xırdaxanım xala əlini məchul nöqtəyə uzadıb dedi:

"Bax, görürsünüz? Üzündə də niqab var, amma elə bil heç niqabı yoxdur, üzündən nur tökülür. Əlindəki qılınca bax, ay Allah! Necə parıldayır".

Qadınlar heyrətlə Xırdaxanım xalanın göstərdiyi istiqamətə baxdılar. Dənizin üzəriylə uzun, ağ geyimdə üzü niqablı bir şəxs ətrafına işıq saça-saça onlara tərəf gəlirdi. Bu işıq sanki ona yol açırdı, onun gəldiyi yola xalı kimi döşənmişdi. Hamı heyrətdən içini çəkib əllərini ağızlarına apardılar. İlahi, bu nə möcüzədir?! Görünür, hansısa müqəddəslərdəndir. Suyun üzərində ayaq səsləri eşidilirdi. Havadakı gərginliyin, intizarla narahatlıq qarışığının şiddətini hiss eləmək olurdu. Səs çaları yoxdan var olan kimi eşidilib şəlalə kimi üzüaşağı axdı. ***Bu, səsdən daha artıq bir şey idi: havanı deşən işıq şüası idi, insanın içinə çəkə biləcəyi qoxu idi. Bu səs qadınların qəlbinə dolub bədənlərini titrətdi. Qadınlardan biri bayıldı, bir anlıq hamının diqqəti ürəyi gedən qadına yönəldi. Cavan gəlinlərdən biri əyilib həmin qadının başını dizinin üstə qoydu, böyründəki dolçadan üzünə su vurub onu ayıltmağa çalışdı. Qadının saçları üzünə dağılmışdı, sinəsi qalxıb-enirdi, bədəni qıc olmuşdu. Təcrübəli qadınlardan biri səsləndi ki, biriniz onun dilini tutun, dili qatlanıb.*** Qüvvətli gəlinlərdən biri özünü irəli verib qadının ağzını açmağa cəhd etdi, handan-hana qadının dili açıldı, bədəni yumşaldı. Çevrilib dənizə baxdılar, dəniz milyon illər əvvəlki kimi əbədi ləngərlə dalğalanırdı. Səs dözülməz ağrıyla parça-parça olmuşdu. Ağ geyimli, üzü niqablı naməlum adam yoxa çıxmışdı, amma işığın izi suyun səthi üzərində qalmışdı. Qadınlar sual kimi qıvrılıb qalmışdılar. Suyu dinləyən çöl sükuta qərq olmuşdu. Ətrafdakı sükut gözəgörünməz qığılcımlarla titrəyirdi. Bu vaxt "Əliayağı" qədəmgahı tərəfdən azan səsi ucalmağa başladı. Qəfildən başlarının üstündən bir quş keçib qayalıqların arxasındakı əncir ağacına qondu. Quş açıq bozumtul-mavi rəngdəydi, qanadlarında ağ lələklər vardı. Boynunu uzadıb var gücüylə cikkildəməyə başladı. Qadınlardan biri pıçıldadı:

"Görürsünüz, bütün varlıqların içində şükür eləmək arzusu var".

Ümidlər, inamlar igidlərin ətrafında halqalanırdı, qarınları doymasa da könüllərinin doyması ilə təsəlli tapan adamların sayı artırdı. Maddiyyatdan əlləri çıxmış adamlar mənəviyyat uğrunda döyüşürdülər. O çarəsiz günlərdə xalqın əl açacağı, imdad diləyəcəyi bütün qapılar qapanmışdı. Yaradanın qapısından başqa...

***

***Badu-Kubənin camaatı balıqçılıqla dolanırdı, dəniz bu yerin kişilərinin iş yeri idi. Həmişə olduğu kimi dənizin sahilində halətdən düşmüş balıqçılar dolaşırdı, uzaqdan gələn bir neçə atlını görüb ayaq saxladılar. Biri o birinə dedi ki, bunlar heç bizim tərəflərin adamına oxşamırlar. Hardansa başqa yerdən gəlib bura çıxıblar. O birisi çiynini çəkib dinmədi. Onlardan bir qədər aralıda atını çidarlayıb kiçik qayanın üstündə oturan saqqallı şüvərək oğlan teztez Məkkəyə, Mədinəyə gedib-gələn cavan tacirlərdən idi. Onlar iki qardaş idilər, böyük qardaş orda qalırdı, kiçik qardaş isə onun üçün mal aparıb-gətirirdi. Süvari dəstəsi yaxınlaşanda cavan tacir yerindən dik atıldı və atlılardan birinin qarşısında diz çökdü və dedi:***

"Ya Həzrəti Əli! Bu, sizsiniz?! Siz burda neyrinsiniz?"

***Atlının bir ayağı yerdə, digər ayağı isə üzəngidə idi. Bu adamdan yayılan sakit güc yoluxucu idi, bütün vücudundan hərarət və xeyirxahlıq yağırdı, gözləri iti baxışlı, canlıydı. Cavan tacir isti axıntıya düşdüyünü, qorxularının, narahatlıqlarının və əzabının tamamən çəkilib getdiyini hiss etdi, yüngülləşdi. Atlı mülayim səslə qarşısında diz çökən cavandan soruşdu:***

-Sən məni hardan tanıyırsan?

-Mən tacirəm, ya Əli. Teztez Məkkə, Mədinə şəhərlərinə yolum düşür. Sizi orda görmüşəm.

Atlı bu sözləri eşidəndən sonra gülümsədi və atın belinə qalxıb oradan uzaqlaşdı. Yanındakılar da atlarını onun ardınca sürdülər. Cavan tacir hələ də yerində quruyub qalmışdı, alnından süzülən tər gicgahı boyu axırdı. Balıqçılar yaxınlaşıb ondan atlının kimliyini və nə üçün onun qarşısında diz çökdüyünü soruşdular. Tacir üzündəki donuq ifadə ilə onlara baxdı və nəsə demək istədi, dodaqları azca aralansa da ağzından bircə söz də çıxmadı. Balıqçılardan biri qəfildən qışqırdı:

-Heyrət! Bir bu qayanın üstünə baxın. Bayaq burda ayaq saxlayan adamın ayağının izi qalıb, bu da at dırnaqlarının yeri.

Üçü də heyrətlə qayanın üstündəki izlərə baxdılar və deməyə bir söz tapmadılar. İndicə cavan tacirdən onu hardan tanıdığını soruşan şəxs Həzrət Əli idi.

***

***Bu yuxunu isə Əliyar adlı bir cavan oğlan görmüşdü. Bir həftə idi ki, evlənmişdi, bir gecə yatıb qəribə yuxu gördü. Nurani bir qoca onun qolundan tutub qumsallığa bata-bata qayalıqlara doğru aparırdı. Qocanın sinəsinə düşmüş saqqalı ağappaq pilə kimi idi, əlindən böyründəki oğlanın bədəninə yumşaq bir istilik yayılırdı. Əliyar bu qocadan hara getdiklərini soruşmağa cəsarət etmirdi. Uzun bir yol getdikdən sonra qayalardan birinin üstündə dayandılar. Qoca əlini uzadıb Əliyara qaya üstündəki insan və at ayağlarının izini göstərərək nəsə pıçıldayır. Əliyar qocanın dediklərini güclə eşidə bilir. Qoca ona bu yerin qorunmasını həvalə edirdi:***

***-Bil və yadında saxla, bura müqəddəs bir yerdir. Buranı qorumağı sənə tapşırıram.***




(davamı gələn sayımızda)